*azerbajdžansko/Azerbaijani*

# VELENYE HAQQINDA MƏLUMAT

**Velenye** müasir memarlığa və inkişaf edən mədəniyyətlərarası əlaqəyə malik gənc və müasir Avropa şəhəridir. Bu şəhər ilk dəfə 13-cü əsrdə bazar şəhəri kimi qeyd edilmişdir. İkinci Dünya Müharibəsindən sonra isə şəhər kimi inkişaf etməyə başlamışdır və 20 sentyabr 1959-cu ildə yenicə tikilmiş şəhər mərkəzinin təntənəli açılışı olmuşdur. Hazırkı gündə də Velenye təqribən 25,000 nəfəri şəhər sakini olmaqla, ümumilikdə təqribən 33,000 nəfərlik əhaliyə malik 25 yaşayış məntəqəsindən ibarət şəhər bələdiyyəsidir. O, Sloveniyanın ən mühüm iqtisadi mərkəzlərindən biri olmaqla yanaşı, Savinja-Šalek Regionunun məşğulluq, inzibati və təhsil mərkəzi hesab edilir. Velenyenin iqtisadi inkişafının əsasını kömür hasilatı, enerji sektoru, metal emalı və ixtisaslaşdırılmış xidmətlərin göstərilməsi təşkil edir, son zamanlar bu siyahıya turizm da əlavə olunub. Velenyenin gözəl təşkil edilmiş infrastrukturu və qonaqpərvərliyi milli və beynəlxalq miqyasda çoxsaylı mükafatlara layiq görülüb. Şəhər (hündürlük 390 m – Tito Meydanı (Tito Square)) və ətraf rayonlarda olan təbiəti şəhər parklarında, meşələrdə, göl ətrafında, piyada, velosiped və alpinizm cığırlarında asanlıqla seyr etmək mümkündür. Müasir idman kompleksləri, mədəniyyət ocaqları, muzeylər, təhsil müəssisələri və çoxsaylı cəmiyyətlər, klublar və yaradıcı şəxslər şəhərin inkişafına öz töhfəsini verir. Velenye çoxsaylı idman, istirahət, turizm və mədəni tədbirlərin keçirilməsi ilə məşhurdur. O, musiqi, rəqs, poeziya və yeni ideyalar şəhəridir. Velenyenin tarixini tanınmış iqtisadçılar, alimlər, rəssamlar, idmançılar, siyasətçilər kimi görkəmli şəxslər yazır. Velenye təbii görməli yerləri ilə seçilən mədəniyyət abidələrinin, xüsusilə də tədbirlərin və sizi hər zaman məmnuniyyətlə qonaq etməyə hazır olan insanların şəhəridir. – *Velenye şəhərinə xoş gəlmisiniz, köhnə və yeni dostlar!*

© UVKF/Velenika/Leemeta